# Azərbaycan - Özbəkistan münasibətləri

**Qısa tarixi məlumat:**

Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlər 02 oktyabr 1995-ci ildə yaradılmışdır. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Özbəkistan Respublikasında, 1998-ci ilin may ayında Özbəkistan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlamışdır. Hal-hazırda, Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfiri Hüseyn Quliyev, Özbəkistan Respublikasının Azərbaycan Respublikasında Səfiri isə Şerzod Fayziyevdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**Dövlət başçıları:**

1996-cı il 26-27 may - Prezident İslam Kərimovun rəsmi səfəri;
1996-cı il 20-21 oktyabr - Prezident Heydər Əliyevin Türkdilli ölkələrin Dövlət Başçılarının Daşkənddə keçirilmiş IV Zirvə Görüşündə iştirak etmişdir;
1997-ci il18-19 iyun - Prezident Heydər Əliyevin rəsmi səfəri;
1998-ci il 7-8 sentyabr - Prezident İslam Kərimovun TRACECA proqramı çərçivəsində Bakıda keçirilmiş "Tarixi Böyük İpək Yolu"nun bərpasına həsr edilmiş beynəlxalq konfransda iştirak etmişdir;
2004-cü il 23-24 mart - Prezident İlham Əliyevin rəsmi səfəri;
2008-ci il 11-12 sentyabr - Prezident İslam Kərimovun rəsmi səfəri;
2010-cu il 27-28 sentyabr - Prezident İlham Əliyevin rəsmi səfəri;
2012-ci il 11-12 oktyabr - Prezident İslam Kərimovun rəsmi səfəri;

**Hökumət başçıları:**

Səfərlər olmayıb.

**Nazirlər:**

2006-cı il 19-21 iyun - Bakıda keçirilən İslam Konfransı Təşkilatının (İKT) Xarici İşlər Nazirləri Şurasının 33-cü iclasında Özbəkistan Respublikasının xarici işlər naziri E.Qəniyev iştirak etmişdir.

**Parlamentlərarası əlaqələr:**

Milli Məclisdə təsdiq edilmiş Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri millət vəkili Aydın Abbasovdur.Özbəkistan Parlamentində hazırda Azərbaycanla əlaqələr üzrə işçi qrupu yoxdur.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında 99 sənəd imzalanmışdır.

**Link: www.azembassy.uz**

*Son yenilənmə tarixi: 25.02.2013*